**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN**
**İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ**

AZ 1122 Bakı şəhəri,
H. Zərdabi küç. 96

Tel.: (+99412) 431-60-88, Faks: (+99412) 430-52-85
Elektron poçtu: office@isim.az http://www.isim.az

"_____" _________________ 2014-cü il №_______________

**ƏMR № 323**

**Bakı şəhəri** **29 sentyabr 2014-cü il**

**"Səhiyyə sahəsinə aid seçilmiş qanunvericilik aktlarının anlaşılan sadə dildə yazılmış versiyası - bələdçi qaydaların vətəndaşlar arasında təşviq edilməsi barədə"**

Səhiyyə Nazirliyinin 14.01.2014-cü il tarixli 5 nömrəli əmri ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2014-cü il üçün İş Planının 6-cı (2.4) bəndinə əsasən səhiyyə sahəsinə aid seçilmiş qanunvericilik aktlarının anlaşılan sadə dildə yazılmış versiyası - bələdçi qaydaların vətəndaşlar arasında təşviq edilməsi məqsədi ilə

**ƏMR EDİRƏM**

1. 2014-cü ilin sonunadək Respublikanın Ağdaş, Yevlax, Şəmkir, Tovuz, Ağstafa, Qazax, Cəlilabad, Masallı, Yardımlı, Lənkəran, Astara, Şamaxı, İsmayıllı, Qəbələ və Oğuz rayonlarının mərkəzi xəstəxanalarında həm işçilər, həm də xəstəxanalara müraciət edən vətəndaşlar arasında, İSİM tərəfindən tərtib edilmiş bələdçi qaydalara istinad edilməklə, səhiyyə sahəsinə aid qanunvericilik aktlarının təşviqi ilə bağlı görüşlər təşkil edilsin.
2. Əmrin 1-ci bəndində qeyd olunan görüşlərdə istifadə üçün səhiyyə sahəsinə aid seçilmiş qanunvericilik aktları üzrə anlaşılan sadə dildə yazılmış 8 bələdçi qaydalardan ibarət kitabça hazırlansın.
3. Aidiyyəti ekspert cəlb edilməklə qeyd olunan tədbirlərin müvafiq qaydada təşkili və həyata keçirilməsinə nəzarət Layihələrin əlaqələndirilməsi şöbəsinin müdiri Səbinə Babazadəyə tapşırılsın
4. Baş mühasib Abuzər Məmmədova tapşırılsın ki, qeyd olunan tədbirlərin 2014-cü ilin sonunadək keçirilməsi üçün xərclərin smetası tərtib edilsin və vəsaitin smetaya uyğun olaraq İSİM-in bu məqsəd üçün nəzərdə tutulmuş büdcəsi hesabına ödənilməsi təmin edilsin.
5. Əmrin icrasına nəzarət direktorun müavini Rahib Məmmədova həvalə edilsin.

**Direktor** **Ceyhun Məmmədov**

İşə tikilsin
20.10.2014

**İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru Ceyhun Məmmədova**

## M Ə L U M A T

“Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası üzrə Səhiyyə Nazirliyinin Tədbirlər Planının 6-cı (2.4) bəndinə əsasən səhiyyə sahəsinə aid seçilmiş qanunvericilik aktlarının anlaşılan sadə dildə yazılmış versiyası – Bələdçi Qaydaların vətəndaşlar arasında təşviq edilməsi məqsədi ilə İctimai Səhiyyə və İslahatlar Mərkəzinin 323 nömrəli 29 sentyabr 2014-cü il tarixli və 347 nömrəli 9 oktyabr 2014-cü il tarixli əmrlərinə uyğun olaraq oktyabrın 12-dən 19-dək Respublikanın Ağdaş, Yevlax, Şəmkir, Tovuz, Ağstafa və Qazax rayonlarının mərkəzi xəstəxanalarında ezamiyyətdə oldum, işçilərlə görüşlərdə iştirak etdim.

Həmin görüşlərdə xəstəxanaların rəhbərlikləri, idarə heyətinin nümayəndələri, struktur bölmə rəhbərləri, ali, orta və kiçik tibb işlərinə Səhiyyə Nazirliyinin rəhbərliyi altında İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən tərtib edilmiş sözügedən Bələdçi Qaydalar (hər rayon mərkəzi xəstəxanasında 200-ə yaxın olmaqla - cəmi 1100 ədəd) paylanıldı, onun təşviqi ilə bağlı söhbətlər aparıldı, səhiyyə sahəsinə aid qanunvericilik aktlarına dair iştirakçıların sualları cavablandırıldı, təklifləri dinlənilərək müzakirə edildi.

Tədbirlərdə iştirakçılara xəstəxanalara müraciət edənlər arasında da bu Bələdçi Qaydaların təşviq edilməsi tövsiyə olundu.

Görüşlərin sonunda xəstəxana rəhbərlikləri və əməkdaşları Bələdçi Qaydaların hazırlanması və belə tədbirlərin təşkilinə görə həm Səhiyyə Nazirliyinə, həm də İctimai Səhiyyə və İslahatlar Mərkəzinə öz təşəkkürlərini bildirdilər.

20 oktyabr 2014-cü il

**Baş hüquqşünas** **Səbuhi Abdullayev**

S.Abdullayev
ion hazırlanmalı
26.09.2014

**İctimai Səhiyyə və İslahatlar**
**Mərkəzinin direktoru**
**Ceyhun Məmmədova**

MƏLUMAT

**Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 14.01.2014-cü il tarixli 5 nömrəli əmri ilə təsdiq edilmiş Səhiyyə Nazirliyinin** Tədbirlər Planının **6-cı (2.4) bəndinə əsasən "Dövlət orqanlarının fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının anlaşılan sadə dildə yazılmış versiyasının, bələdçi qaydaların tərtib edilməsi və bu məlumatların vətəndaşlar arasında təşviq edilməsi" İSİM-ə həvalə edilmişdir.**

**Həmin** bəndin icrasını təmin etmək məqsədi ilə Respublikanın 15 rayon mərkəzi xəstəxanasında 2014-cü ilin sonunadək İSİM-in əməkdaşı – S.Abdullayev tərəfindən həm işçilər, həm də xəstəxanalara müraciət edən vətəndaşlar arasında, **tərtib edilmiş bələdçi qaydalara istinad edilməklə,** səhiyyə sahəsinə aid **qanunvericilik aktlarının** təşviqi ilə bağlı görüşlər keçirmək nəzərdə tutulur.

Görüşlərin keçirilməsi ilə bağlı xidmətlər barədə cədvəl əlavə edilir.

**Layihələrin əlaqələndirilməsi**
**şöbəsinin müdiri** **Səbinə Babazadə**

26.09.2014.

| Cədvəl | |
|---|---|
| Təşkilatçı | Səbinə Babazadə |
| Mühazirəci | Səbuhi Abdullayev |
| Flayer (format -A4) | 5000 ədəd |
| Dizayner | 1 nəfər |
| Fotoxidmət | 1 nəfər |
| Nəqliyyət xərcləri | |
| Ezamiyyə xərcləri | |

| **Mühazirəçilər** | **Görüşlərin sayı** | **Tarix ( 2014-cü il )** |
|---|---|---|
| S.Abdullayev | 6 görüş (Ağdaş, Yevlax, Şəmkir, Tovuz, Ağstafa, Qazax) | oktyabr |
| S.Abdullayev | 5 görüş (Cəlilabad, Masallı, Yardımlı, Lənkəran, Astara) | noyabr |
| S.Abdullayev | 4 görüş (Şamaxı, Oğuz, Qəbələ, İsmayıllı) | dekabr |